# ƏLİNDƏ TARIN QURBANI...



6 oktyabr böyük tarzən Qurban Pirimovun doğum günüdür. AZƏRTAC bildirir ki, anadan olmasının 143-cü ildönümü tamamlanan görkəmli sənətkarın Azərbaycan musiqisi tarixində özünəməxsus yeri var.

Qurban Pirimov 1880-ci ilin oktyabrında Ağdamın Abdal Gülablı kəndində anadan olub. O, məşhur aşıq Valehin nəticəsidir. Q.Pirimov on beş yaşında ikən müəllimi, müasir Azərbaycan tarının yaradıcısı Sadıqcanın xeyir-duası ilə Qarabağ toylarında seçilən xanəndələri müşayiət edib. Belə toyların birində xanəndə İslam Abdullayev Qurbanın tarda ifasını bəyənib və onu özünə tarzən götürüb. 1905-ci il gənc tarzən üçün uğurlu olub. Belə ki, Gəncə toylarının birində Cabbar Qaryağdıoğlu onun ifasını bəyənib və İslam Abdullayevdən razılıq alaraq gənc ifaçını özü ilə Bakıya gətirib. Bundan sonra Qurban Pirimov ifaçılıqda məşhurlaşıb, dövrünün ən görkəmli xanəndələrini müşayiət edib.

Onun ifasında özünəməxsus çalğı ştrixləri olub. Bunlar onun öz tapıntısı, ürəyinin hərarəti idi. Q.Pirimovu tanıyanlar onun həm də çox zarafatcıl bir insan olduğunu xatırlayırlar. Həmişə zarafatla tarzənlərə deyərmiş ki, birdən yolla gedəndə sizə daş atarlar, tez əllərinizi gizlədin. Bircə əllərinizi qoruyun. Qurban Pirimov haqlı idi. Bizləri heyrətə salan, möcüzələr yaradan məhz həmin əllər idi. Həmin əllərin sehrindən süzülən musiqi hər kəsin qəlbini fəth edə bilirdi.

Tarzənlər bu gün böyük sənətkarın yolunu davam etdirərək öz sələflərini unutmağa qoymurlar. Ancaq Qurban Pirimovun öz sözləri ilə desək, "Öyrənmək ustad olmaqda ümdə şərtdir. Amma gərək hər bir ustadın öz barmaqları olsun".

Sənətkarın yaradıcılığına sağlığında dövlət tərəfindən yüksək qiymət verilib, ən böyük qiyməti isə xalq məhəbbəti ilə alıb. 70 ildən çox köksünə sıxıb dilləndirdiyi tar Qurbansız qalsa da, Azərbaycan tar sənəti Qurbansız deyil və olmayacaq, onun sənəti, ulu tarımız əbədi yaşayacaq. Deyirlər ki, insanı özündən sonra üç amil yaşadır: əməlləri, əsərləri və övladları. Bu mənada Qurban Pirimov çox xoşbəxt insan olub. Sənətkar 1965-ci il avqustun 29-da dünyasını dəyişib, ancaq onun sənəti və şəxsiyyəti bu gün də milli mədəniyyətimizin səmasında parlamaqdadır.